# Çingiz Əliloğlu: "Azərbaycanda gənclər arasında ciddi imzası olan qadın yazıçı yoxdur"

## "Ömrünün çoxunu yaşamış bir adam, nə verəcək bu millətə?"

## "Vaxt olub bir həftəyə 1 kitab yazmışam"

***Azərbaycanın tanınmış şairi, Əməkdar Mədəniyyət İşçisi Çingiz Əlioğlunun müsahibəsi:***

*Çoxdan idi görmürdüm. Zəng edib məqsədimi bildirəndə yenə o ağırtaxtalı səsiylə "gəl, söhbət edək", dedi. Görüşdük. Min il öncənin və min il sonranın Çingiz Əlioğlusudur ki var. Bu ölkədə çoxları öz şeirini yazmadı, yaza bilmədi. Şair Çingiz Əlioğlu isə şirin türkcəmizin adamın cızdağını çıxardan xaslığıyla öz şeirini yaza bildi. O, təkcə şeirinə öz dilcə(miz)də sözlər gətirmədi, həm də öz ruhca(mız)da dil gətirdi. Söhbətimiz boyunca onun özünü hesaba çəkən sarsılmaz simasında ədəbiyyatımıza qarşı hüdudlar aşan ümidlərim bir daha artdı. İmzasını çoxdan təsdiq etsə də, çağdaş şeirimizin ən tanınmış və ən yaradıcı simalararından biri kimi heç indi də yazı-pozu işinin şirinliyindən geri qalmır. Həm də ilk kitabının adından qalma NİKBİNLİK sözü bütün çalarlarıyla, tutumuyla yalnız şeirlərinə bəlli taleyində işıq kimi yanır. Mən onunla həmyaşıd, həm dost kimi söhbət elədim. Daha önçəki nəslin nümayəndəsi olaraq mühakimə xarakterli ab - havayla keçdiyi yolun yorğunluğundakı uğuruna kölgə salmaq üçün deyil.*

**- Salam, Çingiz müəllim. Necəsiniz? Nə var, nə yox ?**

- Mən lap yaxşıyam. Səninlə görüşəndən sonra özümü daha yaxşı hiss edirəm. Sən bayaq dedin ki, mənimlə görüşüb - görüşməyəcəyini götür - qoy edirmişsən. Nahaq yerə tərəddüd edirmişsən. Mən sənin imzana bələd olduğum və şəxsiyyətinə hörmət etdiyim üçün, səninlə görüşə hər zaman hazıram.

**- Minnətdaram iltifatınızdan dolayı. Sadəcə narahat etməmək baxımından idi bu tərəddüd. Mən bir daha hiss elədim ki, Çingiz Əlioğlu min il əvvəlin, min il sonranın Çingiz Əlioğlusudur. Ona bu dünyanın heç bir rüzgarı, dalğası, gücü təsir edə bilməz. Çingiz müəllim, sizə gələndə masanızın üzərində bir yığın qəzet gördüm.**

- Bəli.

**- Yenə də mütaliənizdən qalmırsınız, deyəsən. Dünyada gedən proseslər, hadisələr, olaylarla bağlı son zamanlar yaddaşınızda ilişib qalan, sizdə narahatlıq doğuran hansısa bir məqam varmı?**

- Var, əlbəttə. Ancaq sevindirici məqamlar da az deyil. Hər halda biz bu ölkədə yaşayırıq. Bu xalqın övladıyıq. Xalqımızın, ölkəmizin düçar olduğu bu bəla da bizim hamımıza tanışdır. Mənə isə olsun ki, artıq dərəcədə tanışdı. Çünki mən Qarabağlıyam. Bir tərəfim Şuşadan, bir tərəfim Füzulidəndir. Mən bu barədə danışanda, tərəddüt etməyə başlayıram. İstər - istəməz başlayıram müəyyən daxili sıxıntılar keçirməyə. Bunun da səbəbləri var. Ancaq bununla belə, mən vaxtı ilə ilk kitabımı nahaq yerə "Nikbinlik"adlandırmamışam.

**- Bu gün sizi görəndən sonra ilk kitabınızın adını xatırlayanda, bir daha inandım ki, adlar bizə çox şey deyir. Bizim gələcək taleyimizi müəyyənləşdirir.**

- Doğru deyirsiniz. Mən ilk kitabımın adını "Nikbinlik", ikinci kitabımın adını "VAĞZALLAR, YOLLAR", üçüncü kitabımın adını isə "Soraqladı Sevgi Məni" qoydm. Beləcə, kitablar başladı çıxmağa. İndi mənim müxtəlif dillərə tərcümə olunmuş kitablarımla və dilimizə elədiyim tərcümələrlə birgə 80-ə qədər kitabım çıxıb. Təbii ki, söhbət kəmiyyətdən çox, keyfiyyətdən gedir.

**- Hər halda Çingiz Əlioğlu imzası bu ədəbiyyatın içində göz yumulası, üstündən sükutla keçiləsi bir şair imzası deyil. Yeniliyə açıq, modern şeirin gözəl çalarlarını yaradan nümunələrlə öyünməyə haqqınız var. Mən söhbətimizn əvvəlində qəzetdən, xəbərlərdən söhbət saldım. Bax, Şuşadan danışdınız. Bir az da söhbət uzansa gedib çıxacaq, Zəngəzura, Dərbəndə, Borçalıya, Təbrizə kimi. Bu adların, coğrafiyanın qapsamında Çingiz Əlioğlu nələr düşünür, nələr hiss edir. Çünki bizim yazarlar həm də ZİYALI anlayışındakı haqqı - sayı yerinə gətirən fədailərdir.**

- Bu gün fiziki imkanlarla götürəndə Çingiz Əlioğlu 30-40 yaşındakı Çingiz Əlioğlu deyil. Amma mənim ruhum sarsılmır. Mən hesab edirəm ki, biz bu erməni gapına tez-gec qalib gələcəyik. Bunun üçün çox çətinliklər mövcuddur. Bunun üçün arada Rusiya var. Mənə elə gəlir ki, hər şeyi açıqlamamaq üçün, elə "arada Rusiya var" cümləsini işlətməyin özü kifayətdir. Rusiyanın bu fəlakətimizə münasibətinin necə olması məsələsi hər kəsə məlumdur. İş ordadır ki, bu gün elə bir ordu qurulub, gənclərimizdə elə bir ruhi mənəvi bağlılıq yaradılıb ki, Azərbaycanın torpaqla bağlı problemlərində biz hökmən qalib gələliyik. Bunu Aprel döyüşləri də sübut elədi. Bilirsənmi, Azərbaycan bütün tarix boyunca çox bəlalardan keçib. Azərbaycanın torpağınan bağlı qayğıları, elmlə, yaradıcılıqla, məhsulla bağlı böyük qayğıları olub.

Bu xalq həmişə öz başının üzərindəki qılıncın hənirini hiss edib. Baxmayaraq, biz, heç vaxt da təslim olmamışıq. Amma bunun qayğı və iztirabını çəkmişik həmişə. Sən təsəvvür elə, necə şirnikiblər ki, bizim xalqın yaratdığı məsələlərə, əsərlərə, xalçalara mənimsəyib sahiblənmək istəyirlər. Məni bir dəfə Moskvada xalça sərgisinə dəvət elədilər. Sərginin direktoru və aparıcılardan biri erməni familiyalı qadın idi. Ora mədəniyyət üzrə ateşemiz hörmətli Nigar xanımla getmişdim. Orda nə qədər xalçalarımız İranın adıyla fars xalçaları kimi təqdim edilirdi. Nə qədər Qarabağ, Azərbaycan xalçaları erməni adıyla tanıdılırdı. Çox cüzi bir qismində Azərbaycan xalçalarını Azərbaycan adıyla verilmişdi. Bilirsinizmi, buna qeyzlənmək də olar, ancaq sakit durub baxmaq da mümkün deyil. Bütün bunlarla bərabər, orda çıxış elədim və lazım olan sözləri, iradları bildirdim.

**- Çingiz müəllim, siz indi sayırsınız, musiqimiz, alətlərimiz, xalçalarımıza necə sahib çıxmalarını. Ancaq dərd ondadır ki, onlar bizim xalqın yetişdirdiyi böyük şəxsiyyətlərə də sahib çıxırlar. Çox qəribədir. Mən anlamıram, sən sevmədiyin, özünə düşmən bildiyin millətin milli sərvətini, mənəvi dəyərlərini necə özünün adına çıxmağı rəva bilirsən? Bu son dərəcə təzadlı məsələni anlamaq olmur.**

- Erməni iştahı böyük olur. Çox iştahlı yırtıcıdır erməni iştahı. Dişi canavar kimidir erməni. Onların içində mənim dostlarım olub. Elə indi də var. Ancaq bunlar ayrı - ayrı şeylərdir. Sözün böyük mənasında xalqı götürəndə, o bəzi şəxsləri var ki, xalqı özləri kimi dişi canavarlara çeviriblər. Xalqın beynini, əxlaqını tamamilə pozublar. Münasibətləri pozublar. Onlar haqqında danışmaq olduqca çətindir.

**- Bir də Çingiz müəllim, Azərbaycan deyəndə, istər-istəməz funksionallığı olan bir bütövlükdən söhbət salsaq, gərək Güney Azərbaycandan, Orta Asiyadan, hardasa Uyğurlardan da danışaq.**

- Uyğurlar 25 milyondur.

**- İndi düşünün, Çin hakimiyyəti illərdir, Uyğurlara olmayan zülmləri edir. Heç faşistlərin əl atmadığı uyğurlara qarşı iyrənc, əzici üsullara əl atırlar. Bax, bu baş verənlər dalğa misali sizin şair həssaslığınızdan nə dərəcədəkeçir?**

- Mənim bu haqda bir çox şeirlərim də var. O dalğa məndən keçməsə, o şeirləri yazmazdım, yaza bilməzdim.

**- Əzbərinizdə də yoxdur?**

- Mənim heç bir şeirim əzbərimdə yoxdur. Bu, çətin sualdır. Bir neçə qatı olan sualdır. İndi mən durum bir türk oğlu kimi bu barədə danışım, bu bir ayrı şeydi. Bir Azərbaycan şairi kimi danışım, bu da bir ayrı şeydi. Çin deyirsiniz, 25 milyon insanı var ki, bizimlə bir dildə danışır. Mən Pekində 9 gün olanda onlardan, uyğurlardan yanıma gəliblər, görüşmüşük, söhbət eləmişik. Çin özü o qədər böyükdür ki, 25 milyon deyəndə deyirsən nədir ki? Ancaq 25 milyondan söhbət gedir.

**- Heç Qafqazı silkələsən, 10-15 milyon olar, ya yox.**

- Bəli, Çindəki 25 milyon insan az rəqəm deyil. Onların yaşantıları, başına açılan oyunlar, çətinlikləri də ayrı bir məsələdir. Onlar əzab çəkirlər.



**- Görünür, tarixdən də gəlmə nələrsə var...**

- Bəli, tarixdən də gəlmə çox şeylər var. Bu günə kimi xalqlar içərisində boy verib yaşayıb səslərini ucaldıblarsa, demək yaşayacaqlar. Çinin özündə də indi müsbət təmayüllər, meyillər çoxlamağa başlayır. Orda da demokratiya nə olduğunu yaxşı bilənlər var. Hər halda inanmaq, inanmaq lazımdır.

**- Arazın o tayındakı soydaşlarımızın problemləri də az deyil. Çinin bir başqa variantını İranda görmək olar. Bir zamanlar xəyal edirdik ki, bu türk ölkələri bir araya gələcəklərmi, gələ bilərmi? Aradan illər keçir, indi bu yaxınlaşmalar lap üst düzeydə baş verir. Sanki xəyallar az qalır gerçək olsun. Bu məsələlər sizə nə şəkildə şövq verir?**

- Bu gün əgər R.T.Ərdoğan hörmətli prezidentimizin adını çəkirsə, bizim prezidentimiz Ərdoğan cənablarına "mənim əziz qardaşım" deyə müraciət edirsə, bundan gözəl, duyğulu nə ola bilər ki? Bu tamamilə yeni bir səviyyədi, yeni bir gözəllikdi. Bütün bu gəlişmələr tədricən olur. Yavaş - yavaş, öz yoluyla qaydasıyla. Türkiyə də balaca ölkə deyil. 82 milyon əhalisi var. Orda da hamı Ərdoğan demir. Müxtəlif fikirli, düşüncəli, ideyalı insanlar da var. Onların hamısı Tayib Ərdoğan desəydi, bu qədər qarışıqlıqlar, qarşıdurmalar olmazdı. Məncə, hər halda bütün işlər xeyrə doğru gedir. Bu ilk növbədə ölkə rəhbərinin iradəsindən asılıdır. İstər Türkiyədə, istərsə də bizdə olsun, olduqca ardıcıl işlər aparırlar. Biz görməsək də, böyüməkdə olan nəsil görəcək.

**- Narahat olmayın, bizlər də görəcəyik.**

- İnşaallah.

**- Nəsil demişkən, Çingiz müəllim, sovetlər sonrası zaman elə biləsən ildırım sürətilə bir yerdən başqa bir yerə məsafə qət etdi. Bizi bir yerdən başqa bir yerə götürüb atdı. Yeni bir nəsil yetişir. O nəslin bir parçası da Azərbaycanda yetişir. Bu ölkədə yetişməkdə olan gənc nəslə nələrisə həvalə etmək olarmı?**

- Olar.

**- Nəyə dayanaraq söyləyirsiniz?**

- Əvvəla bizim nikbin olmaqdan başqa bir yolumuz yoxdur. Öz ömrünün çox hissəsini yaşamış bir adam, nə verəcək bu millətə, bu xalqa, bu ölkəyə? Gəncliyə inanmaq lazımdır. Cavanlara bel bağlamaq lazımdır.

Bu insanlar hər zaman hər yerdə mötəbər olacaqlar, möhtədil olacaqlar. Səhv də buraxacaqlar. Ancaq hər zaman xalqa məhəbbətlə yanaşacaqlar. Ölkəni, xalqı, dövləti hər vaxt müsbət istiqamətə çəkib aparacaqlar. Bu qaçılmaz bir həqiqətdir. 76 yaşım var. Bundan sonra nə qədər yaşadım yaşadım da. İndi mən paslanmış, nəm çəkmiş, nəmişlik yığmış, duyğuları xalqa, camaata təlqin eləməklə nə qazanıram? Ən əsası xalq nə qazanır. Xalqa getməli olduğu yolların ən aydınını, işıqlısını, çətinini göstərmək lazımdır. Həm də göstərmək lazımdır ki, sən burdan getməlisən. Gərginlik yaratmaq lazım deyil. Bax, onda biz hansısa müsbət şeylər əldə etmiş olacağıq.

**- Bilirsiniz də, bu coğrafiyada hər şeyin ilk ağırlığını, ağrısını ədəbiyyat çəkib, ədəbiyyat dilə gətirib. Öncəliklə ədəbiyyat. Bizdən öncə bir sistem oldu. Siz də o sistemdə yaşadınız, yaratsınız. O tarix bizim ümumi tariximizin bir parçasıdır. O dövrün qəribə mövzuları vardı. Oktyabr, Kremil, Lenin, Qızıl Ulduz və s... o mövzularda heç yazmısınızmı, yaxud bu mövzularda yazmağa sizi vadar edən, təkid edən olubmu? ( Bu yerdə Çingiz müəllimin üzündə qəribə bir sakit gülüş necə cövlan elədisə, məni də uğunmaq götürdü. Bu gülüşmələr nəydi qəfil, haqladı bizi)**

- Danışım da. Lenin 100 illiyi olmalıydı zənn edirəm. Məni "Azərbaycan" jurnalının baş redaktoru çağırdı yanına. Mən də getdim. Onu da deyim ki, mən onun özündə, yoldaşını da uşaqlıqdan tanıyırdım. Tənqidçi idi. Sonra komitənin sədr müavini oldu. Fikirləşdim ki, məni xeyir ola bura çağırıblar. Dedi ki, biz sənə cavan və istedadlı bir şair kimi etimad göstərib istəyirik ki, Leninin 100 illiyi münasibəti ilə silsilə şeirlər yazasan. Biz də onu jurnalın ilk səhifələrində verəcəyik.

**- Əkrəm Əylisinin dövrü olmasın?**

- Yox, yox. Əvvəl idi. Baxdım ona, matım - qurtum qurudu. Birinci onu soruşdum ki, niyə mən, niyə mən yazmalıyam axı? Yəni bu mövzunun şairləri var da. Bu, işıq haqqı, olmuş söhbəti. Bir - iki şair adı çəkdi. Dedi, onları bilirik, ancaq bizə cavan nəsil lazımdı. Sizin kimi gənc nəslin nümayəndəsi. (Həqiqətən burda Çingiz müəllimi bir uğnuma götürdü ki, gəl görəsən: - x.t.) dedim, filankəs müəllim, mən sizə çox minnətdaram, siz məni yön bilmisiniz. Ancaq mən buna hazır deyiləm. Dedi, necə yəni hazır deyilsən? Dedim, mən bu mövzuya hazır deyiləm. Onun üçün gərək gecə - gündüz araşdıram, materiallara baxam, kitablar var ki, onlarla tanış olam. Dedi ki, sən necə istəsən o materialların hamısıyla səni tanış edərik. Hansı mənbə, kitab, material lazım olsa, onu sizin üçün təşkil edərik. Dedim ki, başa düşün, mən bu işə özümü heç cür mənəvi olaraq hazır görmürəm.

**- Beləcə dediniz? Bəlkə Əkrəm Cəfərdi?**

- Yoooo.

**(ardı növbəti sayımızda)**

**XANƏMİR**

Ədalət.- 2020.- 8 yanvar. S. 4.